


Varlığının ilk günündən təbiət insanın evi, yaşamaq üçün qida mənbəyi olmuşdur. İllər keçdikcə, insanlar təbiətin isti, soyuğunu dərk etdikləri kimi, onun flora və faunasından istifadənin səmərəli yollarını da müəyyən etmiş, özlərinə lazım olan nemətləri qorumuş, nəsildən-nəslə ötürmüşlər. Əlbəttə, bu qayğı onların həyat tərzinin, güzəranlarının daha da yaxşı olması zəruriyyətindən yaranırdı. Ona görə də, yaşadıqları ərazinin flora və faunasından qidalanmaqla bərabər, onlardan həm də faydalanmaq vasitəsi kimi istifadə edirdilər. Beləliklə də, insanlarda təbiətin flora və faunasına qayğı, təbiətə övlad münasibəti yaranmağa başladı. Doğrudur, bəzən təbiət «çılğınlıq» göstərmiş, insanların başına olmazın müsibətləri və fəlakətlərini gətirmişdir. Fırtınalar, leysanlar, daşqınlar, zəlzələlər, insanların illərlə, böyük zəhmətlər bahasına yaratdıqları maddi və mənəvi mədəniyyəti dağıtmış, yerlə yeksan etmiş, minlərlə insan həyatına qəsd etmişdir. Lakin təbiətin bütün fəlakətləri insanı dəhşətə gətirib qorxudursa da, ana təbiətdən ayrı düşməmiş, yenə də təbiətə pənah gətirmiş, onun şıltaqlıqlarına dözməli olmuşlar. İllər keçdikcə insanın gözəlliyə də meyli tədricən artmış, öz həyat və məişətlərini daha yaxşı qurmağa çalışmışlar. Onlar yaşayış yerlərini yeni «qanunlar» əsasında seçməli olmuş, axar bulaqları, mənzərəsi, təbii sərvətləri bol olan yerlərdə məskunlaşmışlar. İnsanların yaşayış yerlərini belə bir meyar əsasında seçmələri sonralar onların bir obada, kənddə və şəhərdə məskunlaşmasına gətirib çıxarmışdır.

*«Elimə qələm alarkən torpağın tədqiqindən başladım. Bu sahədə yazdığım kitabların da, məqalənin də oxucuları yalnız torpağı tədqiq edənlər və becərənlər oldu. Bəs torpaq nədir? Torpağın dərdi çoxdur, onu düşünmək, görmək və hiss etmək lazımdır. Torpaq dilə gəlib şikayətləndi. Kimdən? Özünün «süd verib, bəslədiyi» insanlardan, sinəsinə yara vuranlardan, gözlərinə zəhər tozu üfürənlərdən. Mən isə torpağın övladlarından biri kimi haray saldım, dövri mətbuatda məqalələrlə çıxış etdim, dedim ki, qoy səsimi hamı eşitsin. Oxucular səsimə səs verdilər. Dedilər ki, «Təbil çal» qoy hamı eşitsin...»*

*Akademik Həsən Əliyev*

Hələ eramızdan əvvəl, görkəmli tarixi şəxsiyyətlər, filosoflar insanların təbiətə olan qayğısı, sağlam münasibəti, təbiətdən səmərəli istifadə haqqında olduqca qiymətli, dəyərli fikirlər söyləmiş, insanları təbiətə, onun flora və faunasına qarşı mədəni rəftara, sağlam münasibətə çağırmışlar.

Müsəlman tarixində Allahın Rəsulu olan Həzrəti Məhəmmədin hədislərində təbiətə, canlı aləmə insani münasibətlər haqqında olduqca ibrətamiz, dəyərli fikirləri vardır. Təbiət haqqında Həzrəti Məhəmmədin müdrik kəlamları insanlarda təbiətə qarşı mədəni rəftar, sağlamlığın təminatçısı baxımından həmişə qiymətli olmuş və bu gün də öz dəyərini qoruyub saxlayır. Həzrəti Məhəmmədin təbiətə qayğı haqqında hədislərindən bəhrələnən, onun fikirlərini həyata keçirən insan həmişə gözəl, yüksək mənəviyyata malik olan mədəni insandır, şəxsiyyətdir. Belə, şəxsiyyətlərdən biri uzun illər Azərbaycan təbiətinin böyük təəssübkeşi, Azərbaycan xalqının dünya şöhrətli alimi, akademik Həsən Əliyev olmuşdur. Həsən Əliyev üçün Azərbaycan təbiəti müqəddəs varlıq idi. Necə deyərlər, o, ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alaraq ilin bütün fəsillərində özünəməxsus gözəllikləri olan vətənimizi gəzir, təbiətin dərdini öyrənir, qayğısına qalırdı. Talış dağlarından başlamış Böyük Qafqazın ətəklərinədək, Kür qırağından başlamış Göy-gölə kimi meşələrdə ağacları, körpə fidanları tanıyır, palıdların, çinarların yaşını bilirdi.

Həsən Əliyev haqqında müasirlərinin xatirələrindən, alimin özünün təbiət haqqında yazmış olduğu saysız-hesabsız, olduqca dəyərli əsərlərindən məlum olur ki, gecələr budaqlarında quşları qonaq saxlayan, yayın istisində kölgəsində insanlara sərinlik verən çinarları çox sevərmiş. Təsadüfi deyil ki, xalqımız qədim zamanlardan bu əzəmətli, uzunömürlü florasına

məğrurluq, vüqarlıq rəmzi kimi baxmışdır. Həsən Əliyevin təbiətimizin bu vüqarlı varlığını qorumaq, onlara ögey münasibət bəsləyənlərlə apardığı mübarizənin şahidi olmuş jurnalist Əyyub Hüseynovun xatirəsi olduqca ibrətamizdir. «... Yanılmıramsa, 1976-cı il idi. Orta boylu, ağsaçlı, üz-gözündən ziyalıya məxsus nur tökülən bir kişi qapıdan içəri boylanıb soruşdu: «Ağa burada oturur?» (Şöbə müdiri Seyid olduğu üçün Məmməd Ağayevə hamı «ağa» deyə müraciət edirdi) - Bəli-dedim və onu içəri dəvət etdim... Ağa bizi tanış etdi, bu dünya şöhrətli alim, Azərbaycan təbiətinin vurğunu, tədqiqatçısı, təəssübkeşi və hamisi, akademik Həsən Əliyev idi. Onlar çox mehriban görüşüb, bir-birindən kef-əhval tutdular. Bir qədər ordan-burdan söhbət etdikdən sonra qonaq əsas mətləbə keçdi:

-Ağa, gəlmişəm Azərittifaqın sədri ilə görüşüm, onun işçilərinin əlindən yaman narazıyam. Zalım uşaqları elə bil təbiətə qənim kəsilibdilər. Belə getsə, onların ucbatından respublikada bir dənə ağac, kötük qalmayacaq. Ürəyim doludur. Heç bilmirəm hansını deyim. Cəbrayılda, Vartaşendə (indiki Oğuz rayonu), Ağdaşda neçə yüz il yaşı olan çinarların üstündə yeməkxana, çayxana tikib adına da qoyublar «Ekzotika». Bunu vallah düşmən də eləməz. Üç-dörd gün bundan əvvəl Cəbrayılın rəhbərləri ilə bu barədə çox sərt danışmışam. Demişəm ki, elə eləməyin ki, çinarların başına açdığınız oyunları sizin başınıza açım. Azərittifaqın sədri də əməl etməsə lap YUNESKO-ya, BMT-yə qədər gedəcəyəm.... Bu görüşdən sonra Əyyub Hüseynov Cəbrayıla gedib rayonun mərkəzində olan və gövdəsində iki mərtəbəli yeməkxana tikilmiş, tüstüsündən, hisindən yarpaqları saralmış, üç-dörd yüz yaşı olan, başı göylərə dəyən, gövdələrindən damcı-damcı bal kimi şirin su süzülən və bulaq əmələ gətirən möcüzəni görür və Həsən Əliyevin nəyə görə belə həyəcanla danışdığının şahidi olur. Bakıya qayıdandan sonra o «Əsir çinar» adlı məqaləsini işlədiyi jurnalda nəşr etdirir.

Zaqatala şəhərinin mərkəzindəki cəlbedici qaməti ilə ucalan çinar da Həsən Əliyevin diqqətindən yayınmamışdır. Deyilənlərə görə, çinarın 7-8 yüz yaşı var. Yerli əhali danışır ki, Həsən Əliyev hər dəfə Zaqatalaya yolu düşəndə mütləq o çinara baş çəkir, əlini onun gövdəsinə qoyub, sanki ağacla söhbət edir, dərdini soruşur. Buna bənzər söhbətləri insanlar Dəvəçidə, Qəbələdə, Lənkəranda da eşitdiklərini xatırlayırlar.

Yurdumuzun bəzəyi olan çinarlar nəinki öz şairlərimizin, bəstəkarlarımızın, həm də xaricdən gələn qonaqların və səyyahların da diqqətini cəlb etmişdir. Həsən Əliyev yazır ki, 1965-ci ilin iyun ayında Azərbaycana gəlmiş Rumıniya Elmlər Akademiyasının üzvü Konstantin Krista Kirovabadı (Gəncəni) öz qeyd dəftərində «Çinarlar şəhəri» adlandırmışdır. Elə çinarların da əsil vətəni Azərbaycandır. Onun təbii meşəsi keçmiş SSRİ-də yalnız Azərbaycanda Zəngilan rayonu, Bəsit çayı dərəsində qalmışdır. Vaxtı ilə Həsən Əliyevin təşəbbüsü ilə müvafiq layihə tərtib edilmiş, yeddi yüz hektar sahəsi olan bu yeganə meşənin qoruq olunması məsələsi irəli sürülmüş və 1969-cu ildə çinar meşəsi qoruq elan edilmişdir. Qoruqda az çox rast olunan nöqsanlara dözməyən Həsən Əliyev erməni qəsbkarlarına «əsir» düşmüş çinar meşəsinin bu günü yaxşı ki, görmədi.

Dünyanın inkişaf etmiş ölkələrində insanlarla təbiət arasında mədəni münasibət qədim zamanlarda mövcud olub. Belə ki, bu ölkələrdə təbiətin nəinki fauna və florası, həm də abı-havası belə insanlar üçün dərman, istirahət, həm də tükənməz zövq mənbəyi olmuşdur. Onlar nəinki təbiətin flora və faunasını məhv edir, əksinə heyvanların, bitkilərin çoxalmasına imkan yaradır, onların say artımı qayğısına qalmışlar. Bu hal bir çox ölkələrdə ənənəyə çevrilmişdir. Həsən Əliyev belə ənənələri ömrü boyu müdafiə etmiş, onun respublikamızda geniş vüsət almasına çalışmışdır. Bu ənənə ilə bağlı o yazırdı: 1958-ci ildə Yunanıstanda keçirilən VI Beynəlxalq Təbiəti Mühafizə Konqresində iştirak edərkən ölkənin paytaxtı Afinada kiçik bir meydançada ətrafına məhəccər çəkilmiş iri gövdədə qoca bir zeytun ağacı (gövdəsinin dairəsi 5 metrə qədər) diqqətimizi cəlb etdi. Ona yapışdırılmış kiçik lövhədə «Platon zeytunu» sözləri yazılmışdı. Həmin cümlə nəinki məndə, eləcə də buradan ötüb keçən hər bir ziyalıda təəccüb oyadırdı. Qəribədir, Yunan filosofu 2350 il bundan əvvəl yaşamışdır. Onun zeytun ağacına nə münasibəti ola bilər? Həqiqətdə isə həmin zeytun ağacını məşhur Yunan filosofu Platon basdırmışdır və bu günə qədər xalq onu sevə-sevə qoruyur və mühafizə edib saxlayır. Yunan əfsanəsinə görə hər bir cavan oğlan evlənməzdən qabaq yeddi zeytun tingi basdırıb, onu bar verənə qədər bəcərməli və sonra evlənməlidir. Belə bir «qanun» indiyə qədər yunan xalqı arasında adət və ənənəyə çevrilmişdir. Daha sonra alim yazır ki, bu heç də təsadüfi deyildir. Yunanıstanın əsas təsərrüfat gəlirlərindən biri zeytun yağıdır. Zeytun istehsalında İspaniya və İtaliyadan sonra bu ölkə dünyada üçüncü yer tutur. Ona görə də Yunanıstanda tarixi bir simanın (Platonun) adından gənc nəslin tərbiyələndirilməsində istifadə edirlər. Bəli, doğrudan da çox ibrətamiz nümunədir.



istifadə etməyə dəyər.

Məqaləni hazırlarkən görkəmli alimin Azərbaycan təbiətinə övlad qayğısının nəticəsi olan «Həyəcan təbili» kitabına nəzər salmalı oldum. Kitabda bir-birindən qiymətli təbiətimizin əsrarəngiz gözəllikləri, onların həyatımızda maddi, mənəvi, iqtisadi əhəmiyyəti, həmçinin təbiətin nadir incilərinin qorunub saxlanılması sahəsində qabaqcıl ölkələrin təcrübəsindən istifadə və s. təklif və tövsiyələrlə də tanış oldum. «Yaşıl ciyər» məqaləsində o yazır: «Biz Almaniya düzənliyində geniş bir tarlanın yanından keçərkən, orada becərmə işləri aparılırdı. Fikirləşdik ki, yəqin təzə meyvə bağı salırlar. Maşını saxlayıb baxanda məlum oldu ki, bura yeni salınacaq meşə üçün tinlikdir». Biz təəccüblə soruşduq ki, belə tarlada nə üçün meyvə bağı deyil, meşə üçün tinlik salınır. Güclü məntiqə malik olan hazırcavab alman meşəçisi dedi:

-Meyvəni başqa ölkələrdən də almaq olar, lakin meşəni heç yerdən gətirmək olmaz. Doğrudan da meşə torpaqdır, sudur, havadır. «Su dirilikdir, havadır» misalını Həsən Əliyev belə dəyərləndirir - susuz təbiət də, həyat da ola bilməz. Su da çörək kimi hamıya, hər şeyə həmişə lazımdır. Hətta isbat edilmişdir ki, su çörəkdən vacibdir. Çünki insan bir aydan çox yeməksiz yaşaya bildiyi halda, susuz beş gün də keçinə bilməz. O, görkəmli fransız yazıçısı Sent-Ekzüperinin su haqqında fikrini nümunə kimi təqdim edir: «Su! Sənin nə dadın, nə rəngin, nə də qoxun var. Səni təsvir etmək qeyri mümkündür. Sənin nə olduğunu bilməyərəkdən səndən həzz alırlar. Sən «həyat üçün lazımsan» demək azdır. Çünki sən həyatın özüsən.... Sən dünyanın ən böyük sərvətisən».

Müstəqilliyimizin müasir mərhələsində xalqımızın güzəranı, məişət mədəniyyəti gündən-günə yüksəlməkdədir. Onu da qeyd etmək lazımdır ki, bu gün respublikamızda xüsusi ilə əhalinin çoxluğunu təşkil edən Bakıda suya tələbat durmadan artır. Əhalinin suya olan ehtiyaclarının ödənilməsi sahəsində dövlətimizin perspektiv planları, o cümlədən Oğuz, Qəbələ, Bakı su kəmərinin tikintisinə başlanması gələcəkdə Bakı şəhərinin suya olan ehtiyacının ödənilməsini reallaşdıracaqdır.

İnsanların ağac əkməsi, yaşıllığa qayğı göstərməsi mədəni-estetik xarakter daşımaqla bərabər, həm də təbiətin flora və faunasından iqtisadi şəraitlərini yaxşılaşdırmaq məqsədi ilə istifadə etmişlər. Məsələn, Avstraliyada evkalipt, Kanadada ağcaqayın, Livanda küknar, Kiprdə sərv ağacları ölkənin təbiətində, iqtisadiyyatında mühüm rol oynayır. Təsadüfi deyil ki, göstərilən ölkələrin dövlət rəmzlərində həmin ağacların şəkli əks etdirilmişdir. İqtisadi məna daşıyan bu baxım həm də göstərilən ölkələrin təbiətə qarşı estetik görüşlərinin nəticəsi kimi dəyərləndirilməlidir. Bir sıra ölkələrdə təbiətin florası daha yüksək qiymət - orden və medal adları ilə rəsmiləşdirilib. Məsələn, Yaponiyada insanlar Xrizantema adlı ordenlə təltif olunurlar.

Zirvəsi ağ örpəkli, ətəyi yaşıl meşəli əfsanəvi Kəpəz dağının qoynunda firuzə qaşlı üzük kimi görünən Göy-göl qonaqlarını ilin hər fəslində bir libasda qarşılayır. Göy-gölün pərəstişkarları oranı, heç olmasa ildə bir dəfə görməyə darıxırlar. Yaşıl meşələr, mavi səma, ağ camallı dağlar, dərələrdən axan şəffaf çaylar onun füsunkarlığını birə-min artırır. Göy-göl insanı ilk baxışdan elə cəlb edir ki, sonralar uzun müddət onu unuda bilmirsən. Bu sətirlər Həsən Əliyevin Göy-göl haqqında təəssüratlarındandır. Doğrudan da Göy-göl dünyanın ən gözəl göllərindən biridir. Ona görə ki, şairlərimiz, bəstəkarlarımız, dünya səyyahlarının onun hüsnünə mahnı bəstələməsi, şerlər, oçerklər yazması təsadüfi deyildir. Həsən Əliyev təbiətin bu dilbər guşəsini qorumaq, onun ömrünü uzatmaq naminə çox işlər görmək lazım olduğunu tövsiyə edirdi. O, hər ağacın altında maşın dayanmasını, tonqallar qalanmasını qəbul etmir, məclislərin qoruğun kənarında qurulmasını lazım bilirdi. O insanları sağlam estetik düşüncələrə, təbiəti, onun gözəllikləri haqqında estetik zövqə malik olmağa çağırırdı. «Gözəllik və təəssüf» məqaləsində yazır: - 1958-ci ildə Yunanıstanda keçirilən Beynəlxalq Təbiəti Mühafizə Konqresində olarkən Egey dənizinin sıldırımlı qayaları sahilinə ekskursiyaya getmişdik. Bizi müşayiət edən bələdçi maraqlı bir yunan əfsanəsi danışdı: Qədim zamanlarda Viza adlı bir quldur yoldan keçənləri soyur, özlərini də dənizə atırmış. Camaat quldurun əlindən cana gəlir və yunan allahlarından biri Arakula şikayətə gedir. Arakul quldura edam etmək istəyəndə Viza yalvarıb günahının bağışlanmasını xahiş edir. Arakul onu azad etməyə bir şərtlə razılıq verir. Viza dünyada elə bir yer tapmalıdı ki, orada adamlar hamısı kor olsun. Quldur öz ömrünü uzatmaq naminə razılıq verir və uzun müddət dünyanı dolaşır və nəhayət gəlib Bosfor boğazının sahilinə çıxır. Körfəzin sahili çox gözəl idi. Ona görə də Viza rast gəldiyi birinci adamdan bu gözəl yerin adını soruşanda, o cavab verir: «Hanı gözəllik, mən onu görmürəm». Viza ikincidən soruşur. O da eyni cavabı verir. O, hamıdan bu cavabı eşidəndə tez Arakulun yanına gedir. «Korlar olan yeri tapdım! - deyir». Həsən Əliyev bu nümunə ilə bir daha təsdiqləyir ki, təbii gözəlliyi görmək, hər şeydən əvvəl, ona qayğı

göstərmək deməkdir. Əgər biz gözəlliyin qayğısına qalmırıqsa, demək onu görmürük.

Son zamanlar dövri mətbuatda, televiziya verilişlərində respublikamızın müxtəlif bölgələrində yurdumuzun flora və faunasına amansız qəsdlərin şahidi oluruq. Yol kənarlarındakı uzun ömürlü qoz ağaclarının qırılması, vaxtı gəldi-gəlmədi ovçuluq qaydalarına əməl etmədən quşların ovlanması təəccüb doğurur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələrinin ciddi səylərinə baxmayaraq yurdumuzun flora və faunasına qəsdlərin sayı azalmır ki, azalmır. Belə getsə bir neçə ildən sonra respublikamızda bir çox quşların xüsusilə turac, qırqovul, kəklik və s. adları dünyanın Qırmızı kitabına düşəcək. Ovçuluq sahəsində məsələyə vətənpərvərlik istəyi ilə yanaşdıqda məlum olur ki, bu sahədə də maariflənməyə böyük ehtiyac var. Həsən Əliyev təbiətimizə belə qeyri sağlam münasibətlərə son qoymaq üçün vaxtı ilə dəyərli nümunələr söyləmişdi: - Almaniyada hər kəs ovçu ola bilər, amma bunun üçün onun qarşısına çoxlu maneələr çıxır. Ovçu olmaq istəyən hər bir şəxs meşəni də, onun canlı aləmini də, silahı da, ovçuluq qayda-qanununu da yaxşı bilməlidir. Yalnız bunları mükəmməl öyrəndikdən və xüsusi imtahan verdikdən sonra, o ovçuluq huququ alır. Bundan başqa, ovçuluq eləmək istəyən adam müəyyən xərc də çəkməlidir. O, hər il, öz əmək haqqının 6 faizini üzvü olduğu ovçuluq cəmiyyətinə keçirir və baş verə biləcək bədbəxt hadisələr üçün xüsusi sığorta pulu ödəyir. Alim fikrini davam etdirərək qeyd edir ki, bunlar, necə deyərlər, məsələlərin yalnız maddi tərəfidir. Ovçuluğun mənəvi tələbləri də var ki, hər bir şəxs ona da qanun kimi möhkəm riayət etməlidir. Məsələn, quşu ancaq uçan zaman vurmaq olar. Yaxud, dovşanı yalnız qaçan zaman ovlamağa icazə verilir. Maralları yemləmə məntəqəsindən ən azı 200 metr uzaqlıqda nişan almaq olar və s.

Həsən Əliyev belə mədəni ovçuluq qaydasının başqa Avropa ölkəsində də olduğunu göstərir. O, yazır: - Yadımdadır 1959-cu ildə Praqadan Pinzenə qədər kəndin yaxınlığında xeyli qırqovulun dən yediyini, iki nəfər ovçunun isə dayanıb onlara tamaşa etdiyini gördük. Maşının səsinə qırqovullar aralandılar. İkisi havaya qalxdı. Ovçular uçan qırqovulları dərhal nişan aldılar. Bizi müşayiət edən təəccübləndiyimizi görüb bu barədə izahat verdi... Göründüyü kimi mədəni ölkələrdə heyvanat aləminin mühafizəsi üçün yaradılmış süni şərait təbii şərait deməkdir. .

«Hanı sənin ceyranların, ceyrana ölüm?» məqaləsində Həsən Əliyev yazır ki, oxucu məni düzgün başa düşsün. Hər yeni adı onun tarixi hadisəsini, xalqın keçmişini, yaşadığı ərazini, onun nemətlərini, bitkisini, heyvanat aləmini nəsildən-nəslə saxlayır. Ceyrançöl, Eldar düzü, Eldar şamı, Ellər oyuğu, Koroğlu qalası... Axı bunlar hamısı Ceyrançöldədir. Bu ərazi Gürcüstan sərhəddindən, Çandar göldən, Muğanlı kəndinin yaxınlığından başlayıb Mingəçevir dəryacasına, Alazan çayına qədər uzanır. Sonra isə Alazan çayından Şərqə tərəf Acınohur yaylası başlayır. O zaman Ceyrançölün tutduğu ərazi 260 min hektar olub, buranın özünə məxsus flora və faunası göz oxşayır. Həsən Əliyev yazır ki, - hələ 50 il əvvəl ilk dəfə Ceyrançöl düzündə olarkən, orada ceyranlar sürü-sürü gəzir, düzənliklərdə gün batandan sonra və səhər obaşdan su içmək üçün Qabırrı çayına enirdilər. 1970-ci ildə Eldar şamı qoruğuna getmişdik. Oranı, necə deyərlər, ələk-vələk etdik, gözümüzə ceyran dəymədi. Həmin gün Kəsəmən kəndində gecələdik. Səhər obaşdan qalxıb Qabırrı çayına tərəf yollandıq, nə kolluqda qırqovul səsi eşitdik, nə də səhrada ceyran gördük... Bu əhvalat məni xeyli kədərləndirdi. Öz-özümə dedim «Hanı sənin ceyranların, Ceyrançölüm?!» Bu məsələ məni xeyli düşündürdü. Müharibədən qabaqkı illərdə nəinki Ceyrançöldə, eləcə də Mil və Muğan düzlərində, Şirvanda, Qobustanda ceyranlar sürü ilə otlayardılar. Lakin 1960-1963-cü illərdə zooloqların apardıqları tədqiqat göstərdi ki, ceyranların nəsli kəsilmək üzrədir. Muğanda, Qobustanda onlar tam yoxa çıxmışdı. Mil düzündə yalnız bir cüt ceyran qorunmuşdur. Şirvanda və respublikanın digər yerlərində cəmisi 150 başa qədər ceyran qalmışdır. Ona görə də 1963-cü ildə İsveçrədə keçirilən doqquzuncu Beynəlxalq Təbiəti Mühafizə Konqresində ceyranın da adı dünyanın Qırmızı kitabına daxil edildi.

Əlbəttə, belə bir dözülməz vəziyyət Həsən Əliyevi və təbiət sevənləri «həyəcan təbili» çalmağa məcbur etdi. Respublikamızın ərazisində – Şərqi Şirvanda Yer seçildi, qoruq yaradıldı. Hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının, ictimaiyyətin bu işə sağlam münasibəti nəticəsində vaxtı ilə Həsən Əliyevin başlamış olduğu təşəbbüs uğurla həyata keçirilir, qoruqlarda ceyranların sayı ildən-ilə artır. Son hesablamalara görə hazırda qoruqlarımızda 8 minə qədər ceyran var.

Görkəmli alimin təəssüratlarını oxuduqca istər-istəməz düşünürsən ki, təbiətimizin heyvanat aləmini qoruma, ona qayğı göstərmək üçün çox işlər görməliyik. «Talış əfsanələri və talış dağlarının bü günü» məqaləsini həyəcansız oxumaq olmur. «Talış dağlarında yaz respublikanın digər dağlarından tez başlayır. Yazın əvvəllərində buranın füsunkarlığını gözlə görmədən, təsvir etmək çətindir. Məcazi mənada bura «cənnət bağı»dır. Yazın əvvəllərində dağlarda əriyən şəffaf qar suları dərələrə axır. Ağacların tumurcuqlarına, meşələrdə, yamaclarda baş qaldıran sarı-qırmızı çiçəklərə, tər bənövşələrə baxdıqca baxır, gözlərini çəkmək istəmirsən. Qədim dövr Hirkan meşəsinin yadigarı dəmir ağacı, azat (buna «nil» ağacı da deyirlər») Şabalıtyarpaq, palıd, şümşad, ipək akasiya (bəzən haqlı olaraq buna «Küləbişirim» də deyirlər), həmişəyaşıllardan qara cöhrə, danaya (çox təəssüf ki, bu axırıncının son vaxtlar kökü kəsilmək üzrədir) unudulmaz təsir buraxır. Bir sözlə, bu diyarı təbii botanika bağına və ya denderoloji parka bənzətmək olar.

Həsən Əliyev Talış dağlarını, ona yaxın bölgələrin təbii sərvətlərini, insanların səxavətini dəyərləndirməklə bərabər, gələcəkdə bu diyarın sağlamlıq ocaqlarına çevrilməsini lazım bilirdi. Hazırda dağ rayonlarında yol problemləri həll olunmaq üzrədir. Buna görə də Lənkəran, Lerik, Masallı, Yardımlı rayonlarının ərazisində Həsən Əliyevin görmək istədiyi sağlamlıq ocaqları, turist düşərgələri, istirahət və əyləncə mərkəzlərinin sayı ildən-ilə artmaqdadır.



Mənalı ömrünü Azərbaycan təbiətinin qorunub saxlanılması, ölkəmizdə ekoloji durumun yaxşılaşdırılmasına həsr etmiş akademik Həsən Əliyev məktəbi, onun məqalələri, çıxışları, kitabları həmişə müasirdir. Onun əsərlərində biz təbiətimizə övlad qayğısı ilə döyünən ürəyinin səsini eşidirik. Bu səs təbiətimizi qorumaq üçün çalınan həyəcan təbilidir. Müasir şəraitdə ölkəmizdə təbiətin qorunması, meşəliklərin salınması sahəsində dövlət səviyyəsində məqsədyönlü işlər aparılır.

Ekoloji mədəniyyətin mahiyyətini insanların bilmələri üçün onların təbiətlə ünsiyyətdə olması ən yaxşı vasitədir. Təbiətə vaxtaşırı təşkil olunan ekskursiyalardan alınan estetik təsir əxlaqi davranışla nəticələnir. Təbiəti qorumaq, onu yaxşılaşdırmaq insanlarda vətəndaşlıq borcuna, təbiətə övlad qayğısına çevrilir. İnsanlar başa düşürlər ki, ağac əkməklə kifayətlənmək olmaz, onları becərmək, onlara qayğı göstərmək gərəkdir. Respublikamızda son illərdə şəhərlərdə, rayonlarda, o cümlədən Bakı şəhərində yaşıllığa, onun gözəlləşməsinə xüsusi əhəmiyyət verilir, xiyabanların sayı ildən-ilə çoxalır. Ayrı-ayrı insanların, idarələrin, bələdiyyələrin, digər ictimai təşkilatların təşəbbüsü ilə Bakının mikrorayonlarında, həyətlərdə göz oxşayan yaşıllıqlar diqqəti cəlb edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın «Hərəyə bir ağac əkək» layihəsi respublikamızda rəğbətlə qarşılandı, Bakıda və bölgələrimizdə layihə uğurla həyata keçirilir. Təəssüflər olsun ki, bəzi hallarda əkilmiş ağaclar laqeydlik üzündən quruyur, məhv olur. Gündə kifayət qədər gəlir götürən ticarət mərkəzləri qarşısında əkilmiş ağacların vaxtsız quruması da danılmaz faktlardır. Uşaq və yeniyetmələr arasında da yaşıllığa etinasız münasibətlərlə rastlaşırıq, ağacların budaqlarını qıran, gövdəsinə adını yazanlara da az da olsa təsadüf olunur. Bununla belə, Bakı şəraitində dözümlü olan ağaclar az əkilir. Təcrübə göstərir ki, çinar ağaclarına Bakıda çox yer verilməlidir, Bakının küləyinə onlar daha davamlı olurlar.

Müəllimlər, valideynlər, təbiəti sevən bütün insanlar, ictimai təşkilatlar prezidentimiz İlham Əliyevin Respublikamızda ekoloji məsələlərə həsr olunmuş toplantıda çıxışlarının mahiyyətini uşaq və yeniyetmələrə, gənclərə çatdırılması sahəsində müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Biz fəxr etməliyik ki, respublikamızda ekoloji durumun yaxşılaşdırılması sahəsində xidmətlərə görə prezidentimiz dünyada çox böyük nüfuza malik Mixail Zukov Fondunun ali mükafatına layiq görülmüşdür. Bu fond dünyada çox böyük hörməti olan qeyri-hökumət təşkilatıdır. Təşkilat dünyanın müxtəlif ölkələrində çoxlu böyük işlər görür və təbiətin qorunması işində bu fondun böyük xidmətləri vardır. Azərbaycanda da bu fondun işi yüksək qiymətləndirilir. Mükafatın təqdim edilməsi mərasimində İlham Əliyev demişdir: «Sizi əmin etmək istəyirəm ki, gələcək fəaliyyətimizdə də ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu yaxınlarda Azərbaycanda çox böyük və konkret ekoloji proqram qəbul edilibdir və mən xüsusi sərəncam imzalamışam. Proqramda müəyyən olunan bütün tədbirlər Azərbaycanda ətraf mühitin qorunmasına xidmət göstərir». Mixail Zukov İlham Əliyevə mükafatla bərabər 15 min avro məbləğində çek təqdim etmişdir. İlham Əliyev həmin məbləğin Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına sərf olunacağını bildirmişdir.

Bəli, hazırda respublikamızın bütün bölgələrində aparılan abadlıq işləri xüsusilə rəngarəng çalarları ilə bir - birindən seçilən dağ rayonlarına yolların çəkilməsi, vətəndaşlarımızın təbiət qoynunda olmaq, onun gözəlliklərindən zövq almaq imkanını daha da artırır. Elə dünya şöhrətli alimimiz Həsən Əliyevin istədiyi də bu idi... Allah ona rəhmət eləsin!...

**Ələkbər MƏMMƏDOV,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru**